**“Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 26-cı bəndini rəhbər tutaraq, “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 360-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Reklam haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 812; 2016, 11, maddə 1755; 12, maddə 1996; Azərbaycan Respublikasının 1 fevral 2017-ci il tarixli 512-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 29.2.7-ci maddədə “bioloji aktiv əlavə və qida əlavəsi” sözləri “bioloji fəallığa malik qida əlavəsi” sözləri ilə əvəz edilsin.

2. 30-cu maddə üzrə:

2.1. adında “Bioloji aktiv əlavələrin, qida əlavələrinin” sözləri “Bioloji fəallığa malik qida əlavələrinin” sözləri ilə əvəz edilsin;

2.2. 30.1-ci maddədə “Bioloji aktiv əlavələrin və qida əlavələrinin” sözləri “Bioloji fəallığa malik qida əlavələrinin” sözləri ilə əvəz edilsin;

2.3. 30.4-cü, 30.5-ci və 30.6-cı maddələrdə “Bioloji aktiv əlavələrin, qida əlavələrinin” sözləri “Bioloji fəallığa malik qida əlavələrinin” sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 30.7-ci maddə əlavə edilsin:

“30.7. Bioloji fəallığa malik qida əlavələrinin reklamında onların dərman vasitəsi olmadığı haqqında məlumat verilməlidir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 may 2017-ci il
662-VQD